## Əliağa Kürçaylı

### Dəniz

Sən o qədər genişsən ki,
Yerləşər bir cahan sənə.
Bu ulduzlu kainat da
İnan, sığır gen sinənə.

Sən o qədər dərinsən ki,
Bu dərinlik içində sən
Göz görməyən, əl çatmayan
Min xəzinə gizləyirsən.

Sən o qədər təmizsən ki,
Sularına baş vuranda
Elə bil ki, uçuram mən
Bir buludsuz asimanda.

Gah durğunsan ayna kimi,
Gah coşğunsan, narahatsan.
Çırpınanda şir kimisən,
Bir quzusan susub yatsan.

Mənim ola dərinliyin,
Genişliyin, qüdsiyyətin.
Gah çalxanan, gah durulan
Bu dəlisov təbiətin.